# “GƏLƏCƏYƏ ÖN SÖZ”

## VIII. SİYASİ-ƏDƏBİ PORTRETLƏR

## 3. Əsri məzarlığında görüş

> ***Demokratiya və idarəçilik haqqında o siyasətçilərin fikirləri qəbul edilir ki, onlar öz fəaliyyətləri ilə bu müdrikliyi təsdiqləyirlər. Yəni sözləri ilə əməlləri arasında fərq yoxdur... Tarix isə öz səhifələrində məhz belə nəhənglərə qucaq açır, onları həm əfsanə, həm də həqiqət kimi yaşadır.***
>
> **Qulu MƏHƏRRƏMLİ**

Ədəbi publisistikanın elə görkəmli nümayəndələri var ki, istər lirik-psixoloji, istərsə də tənqidi-satirik üslubda yazıları ilə oxucuların qəlbini asanlıqla fəth edə bilib. Mirzə Cəlilin publisistikası demək olar ki, başdan-başa felyetonlardan ibarətdir və hər felyetonun bir ədəbi inci olmağına kimin nə sözü ola bilər?! Yaxud, lirik-psixoloji üslubda Sabir Rüstəmxanlının, Aydın Məmmədovun və, əlbəttə, bir çoxlarının yazıları zaman-zaman publisistik örnək kimi təqdir olunur, ən başlıcası, janrın öyrənilməsi zamanı dəyərli ədəbi nümunə kimi diqqətə çəkilir.



*Əli Rza* XƏLƏFLİ

Yazıçı-publisist Qulu Məhərrəmlinin hekayə ilə qovuşan publisist yazıları sırasında elə nümunələr var ki, oxucunun yeddi qatından keçir. Onu keçmiş haqqında dərin düşüncələrə qərq edir,gələcəklə bağlı həqiqət idealına sadiqlik mövqeyinə çəkir. Qulu Məhərrəmlinin belə dəyərli ədəbi-publisistik örnəklərindən biri *“Süleyman Rüstəm Ankarada - “Əsri” məzarlığında”* (05.03.2019) adlanır. Əlbəttə, Qulu Məhərrəmli publisistikasında sərrast hədəfi göstərmək ustası olduğu üçün burada da ikinci izahedici başlıqdan istifadə edir: *“Sovet ideologiyasının alovlu carçısı, kommunist xalq şairini bolşevizmin qatı düşməni olan M.Ə.Rəsulzadənin məzarı üstünə nə gətirmişdi?”.* İstər yazının müəllifi, istərsə də yazının başlığında adları çəkilən obrazlar birlikdə oxucunun diqqət imkanlarını səfərbər edir. Onu mövzu ətrafında düşünmək üçün cazibə xəttinə çəkir. Qulu Məhərrəmli yaxşı bilir ki, onun yazıçılıq istedadı ilə, həyat faktını təxəyyül imkanlarından istifadə ilə başlığa çəkdiyi adlar kimlər üçünsə təəccüb doğura bilər. Axı necə istiqlal uğrunda mübarizə aparan Məhəmməd Əmin Rəsulzadə adı ömrü boyu kommunizm ideallarını tərənnüm edən Süleyman Rüstəm adı ilə eyni yazıda qovuşmaq imkanı qazanır? Və bu suala, əlbəttə, Qulu Məhərrəmli özü cavab vermək istəyir: *“Yazının sərlövhəsi sizi çaşdırmasın. Bəli, şeirlərindən sosializmin acı şirəsi daman, bütün yaradıcılığı boyu marksizm-leninizm ideologiyasını sevə-sevə nəzmə çəkmiş Süleyman Rüstəm bu ideologiyanın düşməni, sovet sistemini tarixin ən qanlı, ən istibdad rejimi adlandırmış Məhəmməd Əmin Rəsulzadənin Ankaradakı məzarını ziyarət edib. Özü də nə vaxt? Sovet dövlətinin qılıncının dalı-qabağı kəsdiyi, hələ dünyaya meydan oxuduğu 1968-ci ildə. Bu həmin dövr idi ki, S.Rüstəm sovet Azərbaycanında mötəbər söz sahibi, respublika Ali Sovetinin deputatı, xalq şairi, rejimin inandığı kommunist əqidəli qələm sahibi idi. Məktəblərdə onun Lenin və sosializm haqqında poetik ricətləri əzbərlənirdi, 7 noyabr və 28 aprel kimi bayram günlərində S.Rüstəmin aşağıdakı ruhda olan pafoslu şeirləri rəsmi qəzetlərin birinci səhifələrini bəzəyirdi:*

*Ömrüm, günüm, səadətim*
*Oktyabr yaşındadır,*
*Partbiletim sol cibimdə,*
*ürəyimin başındadır...”.*

Bilərəkdən bu yazıda mətnin bütün mahiyyətini oxucuya çatdırmaq üçün heç bir ixtisara yol verməmək istəyindəyəm. Misralar da tanışdı. Hər halda yaşıma və yaşadığım dövrə görə Süleyman Rüstəmi də kifayət qədər yaradıcılıq baxımından yaxşı tanıyıram. Onun cəmiyyətdə, insanlar arasında nə qədər səmimi olduğunu da təkcə bilmirəm, həm də bu səmimiyyəti təqdir edirəm.

Bir sözlə, yazının əvvəlindəki *“qət”* hissəsinin yazı boyu nələr ola biləcəyindən xəbər verən motivlər olsa da, hələ çox şey axıracan məlum deyil. Ona görə ki, Məhəmməd Əmin Rəsulzadə də kifayət qədər məlum obrazdır. Heç Süleyman Rüstəm obrazı da iyirminci əsrin ən azı ikinci yarısından bərisini yaşamış sözdən, kitabdan, yazıdan, ədəbiyyatdan az-çox xəbəri olan hər kəsə az məlum deyil. Yaradıcılığının əvvəlini zamanı üçün 20-ci əsrin axırına yaxın qərəzli, qərəzsiz rəylər geniş ictimaiyyət arasında çox yayılmışdı. Amma əsas odur ki, söz və ədəbiyyat mühitinin daşıyıcıları olan mənəvi baxımdan ağır çəkili simalar Süleyman Rüstəmə ehtiramlı münasibəti bu gün də qoruyub saxlayırlar. Mənim üçün maraqlı idi ki, Qulu Məhərrəmli Süleyman Rüstəm obrazına necə yanaşacaq. Radikal, sərt yanaşma ilə Süleyman Rüstəmin şair və insan obrazını qaralamaq istəyəcək, yoxsa bir Azərbaycan şairinə səmimi münasibətini qorumaq istəyəcək. Hər halda qabaqcadan mənim üçün mübahisəli görünürdü.

Bütün hallarda Süleyman Rüstəm çox ağır zamandan keçib gəlmişdi. Həmin ağır zamanı bizim üçün şərəfləndirən bolşevizm tribunasına yiyələnənlər yox, həmin tribunadan lənətləndirilənlər idi. Ona görə də yazı elə əvvəlindən başlayaraq dramatik bir psixoloji güc müstəvisində özünü təqdim edir: *“Sovet dövrünün çox populyar nəşrlərindən olan “Vokruq sveta” jurnalında baş redaktor müavini vəzifəsində çalışan tanınmış jurnalist Azad Şərifov o vaxtkı Azərbaycan rəhbəri Vəli Axundovun köməyi ilə “İzvestiya” qəzetinin Türkiyə, İran və Əfqanıstan üzrə xüsusi müxbiri təyin olunur. Sovet dövründə xaricdə çalışan ilk azərbaycanlı müxbir Ankarada fəaliyyətə başlayandan qısa müddət sonra Azərbaycan siyasi mühacirləri, onların övladları, o cümlədən Atatürkün dostu olmuş Əhməd bəy Ağayevin oğlu, yazılarında sovetlərə nifrətini gizlətməyən “Cümhuriyyət” qəzetinin nüfuzlu icmalçısı Səməd Ağaoğlu ilə münasibət qurur. Şərqdə ilk parlamentli respublika barəsində, bolşevik Rusiyasının işğal etdiyi müstəqil Azərbaycan dövləti, onun qurucuları, o cümlədən həmin Cümhuriyyətin banisi Məhəmməd Əmin Rəsulzadə haqqında qiymətli məlumatlar toplaya bilir. O illərdə xeyli riskli olsa da, Rəsulzdənin Əsri məzarlığında qəbrini ziyarət edir...”.* Hə, əziz dost, necədir? Bəli, bu Süleyman Rüstəmdir. Məzar önündə hüznlü görkəmlə dayanıb. Həmin məzar isə həyatından, ailəsindən, vətənindən didərgin edilmiş Rəsulzadənin məzarıdır.

Doğrusu, bu *“məzar”*, *“qəbir”* sözləri məni həmişə düşündürüb, özü də çox düşündürüb. Bəlkə bu sözlərin əvəzinə elə Asif Atanın arzuladığı kimi *“son ev”* deyək, özü də bu *“son ev”* sözlərini birləşdirib birgə yazaq: *“sonev”*. Bir az səs, ifadə baxımından qəribəlik gələ bilər, ancaq nəticədə bu ifadənin səslənişinə alışarıq. Lap qoy İslam işğalından 1200 il keçməsinə baxmayaraq, hansı sözün uğurlu dəyişmə ehtimalı varsa, ondan isitifadə edək.

İndi Süleyman Rüstəm Rəsulzadənin sonevi üzərində dayanmışdı. Bu evin möhtəşəm sütunları, qüdrətli görkəmi Azərbaycanın öz varlığı ilə görünürdü. Azərbaycanın böyük dövlət adamlarından biri (S.Rüstəm Ali Sovetin sədri idi) Rəsulzadənin sonevini ziyarət etmək istəyir. Ona kömək etmək istəyən özü də sovet idealının keşikçilərindən biri idi: *“Azərbaycanlı jurnalistin mühacirlərlə əlaqəsi, o cümlədən Rəsulzadənin qəbrini ziyarət etməsi barədə tezliklə Ankaradakı sovet səfirliyinə məlumatlar daxil olur, çünki bu qurumun işçiləri hər kəsi rahatca güdə bilirdilər. Ona görə də səfirlik başqa bir azərbaycanlı, həmyerlimiz, baş konsul Arif Heydərov (sonralar Azərbaycanın daxili işlər naziri olmuş və vəzifə başında qətlə yetirilmişdi - red.) vasitəsilə A.Şərifovu xəbərdar edir ki, mühacirlərlə əlaqələrini davam etdirə bilər, amma Əsri məzarlığına ayağı dəyməməlidir”.* Təkcə bu faktların özü böyük həqiqət haqqında kifayət qədər məlumat verir. Yəni kimin, hansı ictimai quruluşun, hansı ideologiyanın xidmətində olmasından asılı olmayaraq milli təəssübkeşlik hissi varlığında hakimdirsə, onu mütləq böyük həqiqətə tərəf çəkəcək. Heç şübhəsiz, yazının bu motivinə görə bu faktları ədəbi təsvir gücü ilə yazıya gətirməsinə görə biz birinci növbədə müəllifə - Qulu Məhərrəmliyə minnətdar olmalıyıq.

Qulu Məhərrəmlinin iki böyük obrazı bir yazının içərisinə gətirərək, hətta yardımçı obrazın özünü də kifayət qədər portret səviyyəsinə qaldırdığına görə biz onun ədəbi-publisistik dərsinə minnətdar olmalıyıq. Çünki bir yazının içərisində biz Rəsulzadəni nə qədər möhtəşəm görürüksə, Süleyman Rüstəmi nə qədər humanist, milli duyğularına sadiq bir sima kimi oxuyuruqsa, Azad Şərifovu da milli təəssübkeşlik sarıdan bir o qədər milli ruha sədaqətli görürük. Əsil həqiqəti isə mətnin özü deyir: *“Çox sonralar A.Şərifov özü bu barədə yazırdı ki, Arif Nəzər oğlu qısa müddətdə səfirliyin ən nüfuzlu, ən hörmətli əməkdaşına çevrilmişdi. Türklər ona “Siz” deyə müraciət edirdilər. Mənim də xatirimi istədiyindən bir gün evlərinə söhbətə çağırdı və bildirdi ki, əslində, sənin gördüyün işlərdə bir qəbahət yoxdur, çünki nə diplomatsan, nə də siyasətçi. Sonra da Rəsulzadənin II Dünya müharibəsi illərində həyatını riskə ataraq azərbaycanlı əsirlərin çoxunu ölüm düşərgəsindən xilas etməsi barədə xeyli danışdı. Axırda sözünün canı bu oldu ki, heç bir halda Bakıdan gələn turistləri Rəsulzadənin məzarının üstünə aparma, yoxsa bunun xəbəri bütün Ankaraya yayılacaq və sən xoşagəlməzliklərdən yaxa qurtara bilməyəcəksən. Beləliklə, A.Şərifov baş konsula səmimi-qəlbdən söz verir ki, “partiya” tapşırığına əməl edəcək”.* Demək, hekayətin əsas mahiyyətini təşkil edən Əsri məazlığındakı möhtəşəm görüşün baş tutması üçün biz həm də Azad Şərifovun fədakarlığını dəyərləndirməliyik. Qulu Məhərrəmlinin müəllif mövqeyində xüsusilə dəvərləndirilməli cəhət odur ki, o, əsas obrazların qarşılaşma məqamı üçün fədakarlıq göstərən obrazı da unutmur. Onun heç nə ilə əvəz olunmayacaq xidmətini yerindəcə qiymətləndirir.

Azad Şərifov böyük karyera sahibi idi. O həmin görüşü təşkil etdiyinə görə bütün imkanlarından məhrum edilə bilərdi. Ancaq o qorxmadı, çəkinmədi. Bəlkə də ömründə xalqına ən böyük xidmətlərindən biri də elə Əsri məzarlığındakı görüşü təşkil etməsi idi: *“İzvestiya”nın xüsusi müxbiri bir müddət baş konsula verdiyi sözü tutur, amma 1968-ci ilin payız günlərində vədini pozmalı olur. Onun bu vədini pozmağının səbəbkarı bir qrup sovet mədəniyyət və incəsənət xadimi ilə Ankaraya səfərə gəlmiş xalq şairi Süleyman Rüstəm olur. Elə səfərin birinci günü axşam şair uşaqlıqdan tanıdığı Azad Şərifova yaxınlaşaraq ərklə onu “novxanılının” məzarı üstünə aparmağı xahiş edir. Təbii ki, o, xahişdən imtina etməyə çalışır və hətta deyir ki, məzarın yerini bilmirəm. Şair bir az da ərklə uşaqlıq dostuna “fikrin nədir, istəyirsən, Bakıya qayıdanda məni Novxanıya buraxmasınlar?” deyə xahişində təkid edir. Belə razılaşırlar ki, qrup sabah günorta istirahət üçün otelə qayıdanda A.Şərifov şairi qarşıdakı bağın yanında taksidə gözləyəcək”.* Qulu Məhərəmli vaxtilə Rəsulzadənin istifadə etdiyi novxanılı obrazını da yada salır. Bu gün Novxanıda abidəsi ucalan Rəsulzadə məzarlığı ilə Novxanı arasındakı məsafəni Süleyman Rüstəmin dilindən səslənən “novxanılı” sözü ilə kəsib götürür. Demək, vətənsevərlik duyğuları, milli hisslər zaman-zaman alt qata enə bilər. Amma yaddaşın dibi görünməyən dərəsində yoxluğa qərq ola bilməz.

*(Davamı 6-cı səhifədə)*

# VIII. SİYASİ-ƏDƏBİ PORTRETLƏR

## 3. Əsri məzarlığında görüş

*(Əvvəli 4-cü səhifədə)*

Qulu Məhərrəmlinin canlı yazısı sanki onun özünü də müşayiət edir və təkcə onun özünü yox, oxucuları da müşayiət edir və biz birlikdə Əsri məzarlığına doğru gedirik: *"Ertəsi gün vədələşdikləri kimi qrup otelə qayıdanda S.Rüstəm "bir az hava almaq" bəhanəsi ilə oteli tərk edib qarşı tərəfdəki bağa üz tutur. Onu gözləyən taksiyə əyləşir və iki azərbaycanlı "Əsri" məzarlığına yola düşür. Azad Şərifov məzara gedən ensiz yolu yaxşı tanıyırdı, həmin yolu ot basmamışdı, odur ki, azacıq irəliləyib mərmər plitənin üstündə "Bir kərə yüksələn bayraq bir daha enməz", bir qədər aşağıda isə "İnsanlara hürriyət, millətlərə istiqlal" sözləri yazılmış sehrli cazibəsi olan qəbrə çatırlar".* İstər məzarlığa gedən yaddaşda yaşadanların sayəsində ot basmayan cığırlar, istərsə də yaddaşın, zamanın dumanları ilə müşayiət olunan mənəvi cığırlar yaşayırdı. Elə əslində Qulu Məhərrəmlinin xidməti də bunu dikta edir ki, hər millət özünün tarixi şəxsiyyətini, simasını yaşadan simaları unutmamalıdır, çünki bu simalar əslində həm də millətin özü deməkdir. Əsri məzarlığında olan möhtəşəm görüşün özü də tarixin ibrət dərsidir, ağın, qaranın qarşılaşmasıdır, ziddiyyətlərin toqquşmasıdır və qələbə, əlbəttə, həqiqətlərin tərəfindədir: *"Ətrafda qəribə bir sükut və hüzn vardı. Heç birisi danışmırdı. Xalq şairi hədsiz həyəcanlı idi, üzünə dərin bir kədər çökmüşdü, gözləri nəmlənmişdi, əlləri əsə-əsə bir siqaret çıxarıb yandırır... Həmin anlarda Süleyman Rüstəmin nələr düşündüyünü, ürəyindən nələrin keçdiyini, içində hansı hisslərin kükrədiyini, hansı mənəvi burulğanlara düşdüyünü söyləmək çətin idi...Azad Şərifov uşaqlıq dostunun taqətdən düşmüş adamlar kimi dizlərini yerə qoyub çökdüyünü görüb məzardan bir qədər uzaqlaşdı. Uzaqlaşsa da, xalq şairinin ətrafa yayılan hönkürtüsü aydın eşidilirdi...".* Dəhşətli mənzərədir. Tarix bir də bizim milləti qorumaq istəyi ilə alışıb-yanan ürəkləri belə sınaqlara məruz qoymasın.

Zaman keçdikcə ən xırda görünən, ən kiçik görünən həyat motivləri böyük tarixi əhəmiyyət kəsb edir. Heç şübhəsiz, kommunist ideallarının mövqeyində duran görkəmli ideoloq sənətkarları, yəni Süleyman Rüstəmi və Azad Şərifovu ən böyük həqiqət qarşısında səcdəyə məcbur edir. Onlar Rəsulzadənin hüzurunda gücsüz idilər. Bütün gücsüzlükləri ilə yalnız barışmırdılar, həm də tarixdən, taledən imdad istəyirdilər ki, onlara güc versin və onlar böyük həqiqətdən üzrxahlıq diləsinlər, günahlar bağışlansın.

Bütün bunlar böyük tarixi faktlar kimi nə novxanılının, nə də Novxanının qarşısında öz səmimiyyəti ilə günahlarını etiraf edən böyük sənətkarların kimliyi üzərindən xətt çəkmir, əksinə, onların böyük həqiqət naminə birləşmələrinə yön salır. Qulu Məhərrəmlinin qeyd etdiyi kimi, Azad Şərifovun xatirələrində də bunlar təsdiqlənir: *"Azad Şərifov bu epizod barədə "Əsri" məzarlığına gedən yolu ot basmamışdı"adlı yazısında ("Zerkalo", 24 may 2003) epizodik söhbət açıb, amma təfsilatı ilə də danışıb. Bütün hallarda kommunist xalq şairinin M.Ə.Rəsulzadənin məzarını ziyarət etməsi maraqlı faktdır və hərə bunu bir cür yoza bilər. Məncə, burada təkcə "Novxanı" amili rol oynamır. Süleyman Rüstəm deyirmiş ki, Rəsulzadəni uşaqlıqda kəndlərində bir neçə nəfər görüb, yəni şəxsən tanıyırmış. Tanıyırmışsa, deməli, onun siyasi kimliyini də bilirmiş... Bəlkə, partiya şairi gəncliyində yazdığı alovlu inqilabi şeirlərinə görə peşman imiş. Bəlkə, "Təbrizim", "Ana və poçtalyon" kimi incilər yaratmış bir qələm sahibi, sözün həqiqi mənasında Rəsulzadənin böyüklüyünü və özünün qəbahətlərini duyurmuş. Kim bilir...".* Qulu Məhərrəmli ritorik sualdan istifadə edir, amma sual işarəsi qoymur. Üç nöqtə ilə oxucusunu düşünməyə vadar edir. Həqiqətən tarix bir çox məsələlərə ironik münasibətlə cavab verir. Süleyman Rüstəm kimi nir sənətkar Əsri məzarlığına təsadüfi yaddaşda oyanan bir duyğunun təsiri ilə getməmişdi, o əslində zamanın böyük həqiqətini dərk edərək bu yolu seçmişdi.

Bir məsələni də burada qeyd etməliyik. Süleyman Rüstəm ömrünün sonuna doğru həyatının gəncliyində qoyub gəldiyi böyük həqiqəti təzədən yaşayırdı və bu motivin özü də Qulu Məhərrəmlinin qələmə aldığı hekayətdə kifayət qədər aydınlığı ilə görünür: *"Dostlardan biri deyir ki, S.Rüstəm o qədər çox yaşadı ki, yaddaşlarda yaxşı adam kimi qaldı. Uzun illər radioda çalışmış başqa bir dostumuz xatırlayır ki, şairin evinə müsahibə almağa gedəndə soruşdum ki, 28 Aprel, 9 May, 7 Noyabr kimi bayramlar gələndə hansı hisslər keçirirsiz? Şair cavab verib ki, bunu yazma, amma deyim ki, qorxu hissi keçirirəm. Ona görə qorxuram ki, bu bayramlar yaxınlaşan kimi qəzetlər yeni şeir yazmağı sifariş edirlər. Eyni mövzuda nə qədər şeir yazmaq olar axı?!".* Beləliklə, hekayət sona çatır. Ömrünün son illərində həyatın ironiyası qarşısında qorxu hissləri keçirən S.Rüstəm Azərbaycanın böyük şairi kimi dünyadan köçdü. Geniş əhatəli yaradıcılığının bir çox səhifələri gələcəkdə də Azərbaycan xalqının yaddaşından silinməyəcək. Qulu Məhərrəmli son ana qədər hekayətdə tarixi həqiqətlərə sadiq qalır. Yaratdığı, bədii fonda verdiyi obrazların birini digərindən ayırmaq və kəskin təzadlarla qarşılaşdırmaqda birini digərindən aşağılamaq mövqeyi tutmur.

Hekayətin sonunda Qulu Məhərrəmlinin özünün ümumiləşdirici mövqeyi görünür: *"Əlbəttə, qorxular müxtəlif rənglərdə olur. Ən qatı rəngdə olan qorxu isə yaradıcı adamın yaşadığı mühitdən asılı olmayaraq içindən ikiləşməsidir. Çox fəlakətlər, dəyərlərin və şəxsiyyətin itməsi də bu ikiləşmədən başlayır. İkiləşmə adamı çox yerlərə aparıb çıxara bilir. Süleyman Rüstəmin bəxti onda gətirmişdi ki, ikiləşmə onu layiqli bir məkana - bir dahinin məzarı üstünə aparıb çıxarmışdı".* Beləliklə *"Süleyman Rüstəm Ankarada - Əsri məzarlığında"* hekayəti müəllifin ibrətli düşüncəli ilə sona çatır.

Mən həqiqətlərin acı olduğunu bilirəm, ancaq Qulu Məhərrəmlinin yaratdığı hekayətdə həqiqətlərin bu qədər acılıqla üzə çıxacağını gözləmirdim.

...və bir daha inandım, həqiqətlər öz acılığı ilə təkcə ağrı gətirmir, həm də yandırıcı bir yanğı ilə iz qoyur.

**15.10.2021**